## *Türkiyə XİN:*

# "Tehrandakı səfirliyə edilən hücumu lənətləyirik"

"Azərbaycanın Tehrandakı səfirliyinə qarşı bu gün səhər edilən hücumu lənətləyirik. Bu hücumda həyatını itirən səfirlik əməkdaşına Allahdan rəhmət, yaralılara şəfa diləyirik".

Bu sözlər Türkiyə Xarici İşlər Nazirliyinin qanlı hadisə ilə bağlı açıqlamasında əksini tapıb.

Diqqətə çatdırılır ki, keçmişdə oxşar hücumlara məruz qalan Türkiyə Azərbaycan xalqının acısına dərindən şərik olur. Bu alçaq hücumda məsuliyyət daşıyanların dərhal tapılaraq ədalətə təslim edilməsi və belə halların təkrar olunmaması üçün zəruri bütün tədbirlərin alınması mühüm əhəmiyyət daşıyır. Qardaş Azərbaycan xalqı əsla tək deyildir. Azərbaycana dəstəyimiz hər zaman olduğu kimi bundan sonra da fasiləsiz olaraq davam edəcəkdir.

Azərbaycan. - 2023.- 28 yanvar.- S. 4.